# HƏSƏNOV TAHİR TOFİQ OĞLU



Həsənov Tahir 22 fevral 1970-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1987-ci ildə Nəsimi rayonundakı 23 saylı orta məktəbi bitirmişdir. 1988-ci ildə hərbi xidmətə çağırılmışdır. 1990-cı ildə ordudan tərxis olunduqdan sonra Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuşdur. O, universitetin ikinci kursundan könüllü olaraq vətənin müdafiəsinə qalmışdır. Orduda xidmət zamanı desant hissəsində qulluq etməsi, radist peşəsinə yiyələnməsi və yüksək fiziki hazırlığına görə serjant Tahir Həsənov kəşfiyyat qrupuna komandir təyin edilmişdir. Cəsur komandir Yuxarı Qarabağda, Ağdərə, Başkənd, Meşəli və Qıldıran əməliyyatlarında fəal iştirak etmişdir. 1992-ci il sentyabrın 2-də öz dəstəsi ilə Qıldıran yüksəkliyindəki uğurlu əməliyyatdan qayıdarkən düşmənlə üz-üzə gəlmiş və sayca üstün olan ermənilərə qarşı vuruşmuşdular. T.Həsənov düşmən əlinə keçməmək üçün əlindəki qumbaranı partladaraq həm özünü, həm də ətrafındakı erməniləri öldürmüşdür. Bakı şəhərinin şəhidlər xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə Həsənov Tahir Tofiq oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Təhsil aldığı Nəsimi rayonu 23 saylı orta məktəb 1992-ci ildən onun adını daşıyır.